**"Qərbi Azərbaycan mədəniyyəti" rubrikasında çox vacib və aktual bir mövzuya toxunmaq istəyirik. 1988-ci ildə və ondan əvvəl Qərbi Azərbaycandan deportasiya edilən soydaşlarımızın hamısı olmasa da, bəziləri qədim məişət və mətbəx əşyaları, tikmələr, xalça-palaz çıxara biliblər. Bu gün həmin əşyalar evlərdə qalmalı deyil, muzey eksponatına çevirilməlidir.**

# Qərbi Azərbaycan tarix muzeyi - 2 mindən çox eksponata bir nəfərdən başqa daha kim sahib çıxacaq...

## *Elyar İslamoğlu: "Qərbi Azərbaycanla bağlı ayrıca muzeyin yaradılması çox vacib və aktual məsələlərdən biridir"*



"Bakı-Xəbər" olaraq təklif etmək istəyirik ki, Qərbi Azərbaycanla bağlı bir muzey yaradılsın. İndiki şəraitdə bu muzeyi əlbirliyi ilə yaratmaq mümkünsüz olmazdı. Qeyd etdiyimiz kimi, Qərbi azərbaycanlıların evində yaradılmalı olan muzeyə ekponat ola biləcək xeyli əşya var. Biz bu günlərdə Mədəniyyət Nazirliyinin və Heydər Əliyev Mərkəzinin birgə təşkilatçılığı ilə Heydər Əliyev Mərkəzinin qarşısındakı parkda təşkil olunan "Qərbi Azərbaycanın etnomədəni mühitinə səyahət" adlı tədbirdə Pəmbək mahalının Arcut kəndindən olan tarix müəllimi  Səyyad Rəfiyevlə tanış olduq. Səyyad müəllim tədbirdə Arcutdan gətirdiyi əşyaları nümayiş etdirirdi. Dedi ki, onda 2 mindən çox eksponat var. Həm də bildirdi ki, kiçik bir muzey yaradıb, amma statusu, yeri yoxdur. Gördüyümüz kimi, onda 2 mindən artıq eksponat var və elan verib başqa Qərbi azərbaycanlılardan da əşyalar toplamaq olar. Nəticədə də ayrıca Qərbi Azərbaycan muzeyinin yaradılması gerçəkləşər, orada Qərbi Azərbaycan mahallarına aid eksponatlar təqdim edilər. Hər kiçik əşya özündə böyük bir tarix yaşadır, geniş məna ifadə edir.

Təklifə münasibət bildirən AMEA-nın  Folklor İnstitutunun Qərbi Azərbaycan folkloru şöbəsinin müdir müavini, filologiya üzrə fəlsəfə doktoru Elyar İslamoğlu "Bakı-Xəbər"ə şərhində "Qərbi Azərbaycan məsələsi ən həssas, ən problemli məsələlərdən biridir. Uzun illərdir ki, Qərbi azərbaycanlılar öz doğma yurdlarından, yurd-yuvalarından ayrı düşüblər, ata-babalarının, əcdadlarının məzarlarını ziyarət etməyə həsrət qalıblar. Ermənistan onların öz doğma yurdlarına qayıdıb əzizlərinin məzarlarını ziyarət etməyə şərait yaratmır. 44 günlük Vətən müharibəsindən sonra biz torpaqlarımızın çox böyük hissəsini azad etdik və bunun üçün yüzlərlə  şəhid verdik. Yəqin ki, çox da uzaq olmayan zamanda Qərbi Azərbaycan elləri də azad olunar, Qərbi azərbaycanlıların torpaq həsrətinə son qoyular. Qərbi Azərbaycanla bağlı ayrıcı muzeyin yaradılması çox vacib və aktual məsələlərdən biridir. Onlar öz yurdlarını, evlərini məcburən tərk etdikdə özlərinə, xalqımıza aid mənəvi dəyərlərin bir hissəsini özləri ilə gətiriblər. İstər Qərbi azərbaycanlıların geyimləri, istər mətbəx əşyaları, istər əmək alətləri olsun, həm bunlarla, həm də başqa eksponatları bir yerə yığıb muzey yaratmaq çox yaxşı bir hal olar. Ölkəmizə gələn xarici qonaqlar da o muzeyi ziyarət edər və Qərbi Azərbaycanla, Qərbi azərbaycanlıların həyatı, məişəti, mətbəx, geyim, musuqi mədəniyyəti ilə bağlı onlarda geniş təsəvvür olar. Bu muzeydə həmçinin Qərbi Azərbaycanın xəritəsi də olar, orada neçə mahalın, hər mahalın neçə kəndinin olduğu, eləcə də digər məsələlər öz əksini tapar"-deyə bildirdi.

E.İslamoğlunun sözlərinə görə, bu muzey yaranarsa, orada  Qərbi Azərbaycanın bütün mənzərəsi canlandırılmalıdır. O, hesab edir ki, muzey yaradılarsa, bundan yalnız müsbət nəticə əldə edə bilərik. "Təklifinizi alqışlayıram və hesab edirəm ki, bu məsələ artıq öz həllini tapmalıdır. Biz vaxtilə bu məsələ barədə geniş danışa bilmirdik, xaricdən təzyiqlər vardı, amma indi artıq vəziyyət dəyişib. Azərbaycan müstəqil dövlətdir. Ali baş komandanımız, cənab Prezident beynəlxalq tribunalarda öz sözünü qətiyyətli şəkildə deyir.

Necə ki, "Qarabağ Azərbaycandır!" dedi və Qarabağ azad olundu. Bizim keçmiş məcburi köçkünlərimiz Qarabağa qayıdır. Hesab edirəm ki, ən qısa zamanda Qərbi Azərbaycandan olan soydaşlarımız da, məcburi köçkünlərimiz, qaçqınlarımız öz yurdlarına qayıdacaqlar. Dərləyəzdə, Göyçədə, Qərbi Zəngəzurda və başqa mahallarımızda yenə də Azərbaycan türkləri yaşayacaqlar" - deyə E.İslamoğlu vurğuladı.

***İradə SARIYEVA***